azercosmos

AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ

# İLLİK HESABAT




# 2025

# MÜNDƏRİCAT


**Azərbaycanın kosmik strategiyası** ..... 4
- Strateji inkişaf planı

**Haqqımızda** ..... 6
- Azərbaycanın milli kosmik ekosisteminin aparıcı qüvvəsi: Azərkosmos
- Baxış, missiya və dəyərlər
- Əməkdaşlarımız
- Statistik göstəricilər

**Maliyyə göstəricilərimiz** ..... 10
**Qlobal kosmik mənzərə** ..... 11
**Xidmətlərimiz** ..... 12
- Telekommunikasiya
- Mərkəzi Asiya və Azərbaycan üzrə yayım və xidmətlər

**Kosmik Texnologiyalar Konfransı** ..... 15
**Beynəlxalq əməkdaşlıq** ..... 16
**Mükafatlar** ..... 18
**Kosmik ekosistem** ..... 19
- Kosmik sahədə innovasiya və sahibkarlığın inkişafına dəstək
- Maarifləndirici fəaliyyət
- İnsan kapitalının inkişafı
- İntellektual məhsulun ixracı
- KOSMİK Akademiya
- "Azərbaycanın Zəfəri" ilk məktəbli peyki
- Rəqəmsal İnkişaf

**Azərkosmos qlobal medianın gözündə** ..... 26
**Gələcək fəaliyyətin prioritetləri** ..... 27
- Yeni strateji layihələrimiz
- Dayanıqlı inkişaf

**Yekun** ..... 29


"Azərbaycanda son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində əldə edilmiş uğurlar doğrudan da çox təsirlidir."

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev



# AZƏRBAYCANIN KOSMİK STRATEGİYASI

1

Mövcud peyk xidmətlərinin dayanıqlığının təmin edilməsi

2

Kosmik sahə üzrə yerli istehsal potensialının formalaşdırılması, iş yerləri və məşğulluq imkanlarının yaradılması

3

Azərbaycan Respublikasının milli maraqlarının və təhlükəsizliyinin təmin edilməsinə dəstək verilməsi

4

Kosmik sahədə elmi tədqiqatların genişləndirilməsi və insan kapitalının inkişafı

5

Kosmik sahədə startapların, innovativ kiçik və orta biznesin dəstəklənməsi

# STRATEJİ İNKİŞAF PLANI

Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) 2025-2027-ci illər üçün Strateji İnkişaf Planı əsasında fəaliyyətini davam edir. Azərkosmosun Strateji İnkişaf Planı ilə kosmik sahə üzrə inkişaf perspektivləri və Agentliyin məqsəd, hədəf və prioritet istiqamətləri müəyyən edilmişdir.

**Strateji İnkişaf Planımızda 2025-2027-ci illər üzrə 4 məqsədimiz**

- Ölkənin kosmik iqtisadiyyatında dayanıqlı artım
- Qabaqcıl texnologiyalarla ölkəmizin milli maraqlarının qorunmasına xidmət
- Kosmik ekosistem fəaliyyətinin genişləndirilməsi
- Azərbaycanın kosmik ölkə kimi beynəlxalq mövqeyinin gücləndirilməsi





# HAQQIMIZDA

Azərbaycanın milli kosmik ekosisteminin aparıcı qüvvəsi, milli kosmik operator olan Azərbaycan Respublikasının Kosmik Agentliyi – Azərkosmos 2011-ci ildə fəaliyyətə başlayıb. Avropa, Afrika, Yaxın Şərq və Mərkəzi Asiya regionlarındakı tərəfdaşlarına telekommunikasiya, Yerin müşahidəsi üzrə peyk xidmətləri və həlləri, o cümlədən kosmos sahəsində özünün intellektual məhsullarını təqdim edir. Agentlik ölkənin kosmik sahədə ümumdövlət və ictimai əhəmiyyət daşıyan funksiyalarının həyata keçirilməsində, peyklərin idarə olunmasında, mütəxəssis hazırlığında, təlim və konsultasiya xidmətlərinin göstərilməsində, beynəlxalq əməkdaşlıqları və kosmik diplomatiyanı gücləndirməkdə aparıcı rol oynayır.

## Azərkosmosun İdarə Heyəti



**Dunay Bədirxanov**
İdarə Heyətinin sədri vəzifəsini icra edən



**Fuad Aslanov**
İdarə Heyətinin sədrinin müavini

# DƏYƏRLƏR

Korporativ dəyərlərimiz fəaliyyətimizin əsasında duran əsas prinsiplərdir. Ölkənin qabaqcıl qurumu olaraq Fəaliyyətimizi Strateji İnkişaf Planı əsasında qurur, korporativ idarəetmənin ən son yeniliklərini tətbiq edirik.

Dəyərlər sadəcə qaydalar toplusu deyil, təcrübədə istifadə edə bildiyimiz alətlərdir. Korporativ dəyərlərimiz çalışqanlıq, əməkdaşlıq, dürüstlük, yeniliyə açıqlıq və çevikliklidir.

### Əməkdaşlıq

- Biz əməkdaşlığın gücünü həmkarlarımızla sıx münasibət qurmaqda, təcrübəmizi paylaşmaqda və ehtiyac olduqda birbirimizi əvəz etməkdə görürük.
- Biz fikirlərimizi aydın, məntiqli, lakonik və dəqiq ifadə edirik, qarşı tərəfi dinləyir və onların fikirlərinə hörmətlə yanaşırıq.
- Biz qərarların qəbulu zamanı fərqli fikirləri nəzərə alır, onları icra edərkən isə həmrəylik nümayiş etdirik.
- Biz hər bir komanda üzvümüzün uğurunu öz uğurumuz hesab edirik.

### Çalışqanlıq

- Biz gördüyümüz bütün işlərimizi sahiblənirik və bacardığımızın ən yaxşısını edirik.
- Biz inkişaf və keyfiyyət naminə fəaliyyətimizə sistemli yanaşırıq.
- Biz fəaliyyətimizdə yüksək nəticələr əldə etmək üçün bilik və bacarıqlarımızı inkişaf etdirir, işlərimizi təkmilləşdiririk.
- Biz verilmiş tapşırıqları vaxtında, mükəmməl keyfiyyətlə və məsuliyyətlə yerinə yetiririk.

### Dürüstlük

- Biz bir-birimizlə və maraqlı tərəflərlə münasibətdə ədalətli, dürüst və hörmətlə davranırıq.
- Biz korporativ kodeksimizə əsaslanaraq düzgün addımlar atırıq və etik prinsiplərə riayət edirik.
- Biz agentliyimizin resurslarını öz resurslarımız kimi qənaətlə istifadə edirik.
- Biz vəzifə öhdəliklərimizi yerinə yetirərkən daşıdığımız məsuliyyəti dərk edir və verdiyimiz sözü tuturuq.

### Çeviklik

- Biz dəyişikliyi işimizin ayrılmaz bir hissəsi kimi qəbul edir və ona sürətlə uyğunlaşırıq.
- Biz qeyri-müəyyən mühitlərdə rahat və çevik işləyirik.
- Biz daxili və xarici tərəflərin sorğularını cavablayarkən operativlik nümayiş etdiririk.
- Biz resurslarımızın bölgüsü zamanı korporativ strategiyamızı əsas götürür və səmərəli həllər ortaya qoyuruq.

### Yeniliyə açıqlıq

- Biz yenilikləri izləyir, beynəlxalq və öz təcrübəmizə əsaslanaraq davamlı inkişaf edirik.
- Biz biliklərimizi təkmilləşdirmək üçün mütəmadi olaraq suallar verir və öyrəndiyimiz cavabları hazırki fəaliyyətimizə uyğunlaşdırırıq.
- Biz fəaliyyətimizdə innovativ yanaşmanı təşviq edirik və daima yeni imkanlar axtarışındayıq.
- Biz Agentliyimizin fəaliyyətinin yaxşılaşdırılması istiqamətində göstəriş gözləmədən sərbəst şəkildə təşəbbüslər irəli sürür və səmərəli təkliflər veririk.

## Missiya

Agentliyimizin missiyasını daim əsas tutaraq biz kosmik fəaliyyət sahəsində sülh və rifah naminə qabaqcıl texnoloji həllər yaratmağı və davamlı inkişaf etməyi hər zaman ön pillədə saxlayırıq.

## Baxış

Baxışımız - Azərbaycanı dünya kosmik sahəsinin aparıcı qüvvələrindən birinə çevirməkdir.

# ƏMƏKDAŞLARIMIZ

Azərkosmosun əməkdaşları Azərbaycanın, eləcə də xarici ölkələrin qabaqcıl ali məktəblərinin məzunları, gənc və peşəkar yerli mütəxəssislərdir. Əməkdaşların 30%-i xaricdə, o cümlədən Türkiyə, Rusiya, Macarıstan, İngiltərə, Almaniya, Fransa, ABŞ, İtaliya və digər ölkələrdə bakalavr və ya magistratura təhsilini alıblar. Azərkosmos qadınların kosmik cəmiyyətə inteqrasiya etməsi üçün gender bərabərliyinə xüsusi diqqət ayırır. İşçi heyətin 33%-i qadınlardır.

İşçi heyətinin peşəkarlığının yüksək səviyyədə saxlanılması üçün davamlı olaraq beynəlxalq ekspertlər tərəfindən təlim proqramları həyata keçirilir.

Azərkosmosun əməkdaşları qazanmış olduqları bilik və təcrübəni kosmos sahəsində inkişaf etməkdə olan ölkələrə təqdim edir. Artıq bir neçə ildir ki Azərkosmos istedadlı kadrların müəyyən edilməsi, inkişafı və saxlanılması məqsədilə strukturlu yanaşma tətbiq edir. Buraya əməkdaşların illik təlim və inkişaf ehtiyaclarının təmin edilməsi məqsədilə müxtəlif təlimlərin keçirilməsi, daxili mentorluq proqramı, yeni işçilərin adaptasiyası üçün "Dost" həmkar (Buddy) proqramı, işçilərin inkişafı ilə bağlı "Fərdi İnkişaf Planı" proqramının tətbiqi daxildir. Azərkosmosun mütəxəssisləri müxtəlif beynəlxalq sertifikasiyası, liderlik, yumşaq və texniki bacarıqların inkişafı mövzularında, o cümlədən "Korporativ Liderlik Bacarıqlarının İnkişafı", "Radiotezliklərin İdarəedilməsi", "Peyk Rabitəsi", "Coğrafi İnformasiya Sistemlərinin əsasları", "Kosmik hüquq" və digər təlimlərdə iştirak edirlər.







# MALİYYƏ GÖSTƏRİCİLƏRİMİZ

2025-ci ildə ümumi gəlirlərimiz **56.8 milyon manat** təşkil etmişdir.
Qeyd edək ki, 2024-cü ilin analoji dövrü ilə müqayisədə ümumi gəlirlərimizdə **20% artım** vardır.

## Kosmik töhfəmiz rəqəmlərdə

**170+** TV və Radio kanallar

**205+** Yerli və beynəlxalq tərəfdaş

**45+** Xidmət göstərilən ölkələrin sayı

**100+ milyon** İstifadəçi

**80%** Peyk resurslarının istifadəsi

**70%** İxracdan formalaşan gəlir

**92.5%** Müştəri məmnuniyyəti sorğusunun nəticələri

# QLOBAL KOSMİK MƏNZƏRƏ

Dünya İqtisadi Forumunun aprel 2024-cü ildə dərc etdiyi **“Kosmos: Qlobal İqtisadi Artım üçün 1.8 Trilyon Dollar Fürsət”** hesabatına görə, qlobal kosmik iqtisadiyyat sürətlə böyüməkdədir. 2023-cü ildə **630 milyard ABŞ dolları** həcmində olan bu sektor, **illik 9% artım** tempi ilə – qlobal ÜDM artımını üstələyərək – 2035-ci ilədək **1.8 trilyon ABŞ dollarına** çatacaq. Bu böyümə yalnız ənənəvi kosmik oyunçularla məhdudlaşmır. Əsas fəaliyyət sahəsi kosmos olmayan şirkətlər də bu sektora sürətlə daxil olmağa başlayır. Kosmos artıq logistika, rəqəmsal kommunikasiya və təchizat zəncirlərini birləşdirən infrastruktura çevrilir – insanları, əmtəələri və xidmətləri daha da yaxınlaşdırır. Böyüyən bu iqtisadiyyatda dövlətlər və investorlar kosmosa qoyulan vəsaitin gətirdiyi faydanın maliyyə əhəmiyyətindən daha artıq olduğunu dərk edərək investisiyalarını genişləndirirlər.
Dünya İqtisadi Forumunun 2024-cü il may ayında dərc etdiyi **“Yerin müşahidəsinin qlobal dəyərinin artırılması” hesabatına əsasən:** İqtisadi İnkişafın Artırılması: Yerin Müşahidəsi, 2024-2030-cu illər ərzində iqlimə və ətraf mühitə müsbət təsir edərək 3.8 trilyon ABŞ dolları həcmində iqtisadi fayda yaratma potensialına malikdir. Karbon qazının azaldılması: 2030-cu ilə qədər, Yerin müşahidəsi vasitəsilə, bugünkü qlobal illik emissiyaların təxminən 3.6%-nə bərabər olan istixana qazı emissiyalarının illik 2 qiqatona qədər azalması gözlənilir. Bu göstərici 476 milyon avtomobilin emissiyasına bərabərdir. Qlobal dəyərin gücləndirilməsi: Yerin müşahidəsi peykləri 17 Dayanıqlı İnkişaf Məqsədlərindən 16-sının monitorinqinə töhfə vermək qabiliyyətinə malikdir.
Hal-hazırda **kosmik sənayedə olan qlobal trendlər** aşağıdakılardır:

- **Peyk Rabitəsinə Maraq Artır -** Dünyanın hər yerinə fasiləsiz rabitə təmin etmək tələbatının artması ilə bir sıra yüksək profilli D2D (cihazdan-cihaza) kosmik qruplaşma layihələri meydana gəlibdir.
- **Çox Orbitli Strategiyalar -** Çevikliyin əhəmiyyəti artdıqca, operatorlar müxtəlif orbitlərin üstünlüklərindən istifadə edir və bu da tamamlayıcı həllərə tələbatı artırır.
- **Hökumət və Müdafiə Tələbatı -** Müdafiə sahəsinə ayrılan dövlət büdcələri artır. Artan gərginlik hökumətlərin peyk rabitəsi və yerin müşahidəsinə tələbatını artırır və müdafiə ehtiyaclarını qarşılamaq üçün kommersiya və qarşılıqlı uyğun həllərdən istifadəni genişləndirir.
- **Yenidən Təşkilatlanmanın Artan Dalğası -** Sektor hazırda əhəmiyyətli konsolidasiya prosesindən keçir. Artan rəqabətə cavab olaraq peyk operatorları həm şaquli, həm də üfüqi inteqrasiya strategiyalarına üstünlük verir.
- **Texnologiyaların İnteqrasiyası -** Proqram təminatı ilə idarə olunan (Software-defined) peyklərin tətbiqi və Yüksək tutumlu peyk (high-throughput satellite) texnologiyasının inkişafı telekommunikasiya peyk tutumlarının bazar tələbinə uyğun dinamik şəkildə bölüşdürülməsinə imkan yaradır.
- **Datadan Analitikaya Keçid -** Bazar artıq yalnız xam peyk təsvirlərinin və ya məlumatların satışı ilə məhdudlaşmır. Suni intellekt prosesləri avtomatlaşdıraraq onu sadəcə dəstək alətindən qərarverməni yönləndirən əsas mexanizmə çevirir.
- **Peyk Qruplaşmalarının Artması -** Dayanıqlı və daha sərfəli peyk qruplaşmalarına maraq sürətlə artır. 2025-2034-cü illər ərzində müdafiə məqsədli Yerin müşahidə peyklərinin 86%- nın kosmik qruplaşma formatında orbitə çıxarılacağı proqnozlaşdırılır.
- **Dayanıqlılıq -** Artan Ətraf mühit, Sosial və İdarəetmə (ƏSİ) tələbləri bank və investorları qaydalara uyğunlaşmağa və Xalis Sıfır hədəflərini dəstəkləməyə yönəldir. Şəffaflıq və hesabatlılıq üçün Yerin müşahidəsi peyk məlumatlarından istifadənin artacağı gözlənilir.



# XİDMƏTLƏRİMİZ

## Telekommunikasiya

### Afrikada əldə etdiyimiz uğurlar

Ötən il Afrika regionunda kommersiya fəaliyyətimizin 10 illiyini qeyd etdik. Bu münasibətlə, Azərkosmos **“Afrikada 10 il” adlı müştəriləri üçün xüsusi bir tədbir** təşkil etdi. Bu tədbir Afrikadakı tərəfdaşlarımızla əməkdaşlığı gücləndirmək və gələcək planlar barədə müzakirələr aparmaq üçün yaxşı bir platforma oldu.

Afrika regionunda Azerspace peykləri üzərindən layihələrimiz artmışdır. Afrika ölkələrinin **70%-də** bizim xidmətlərdən istifadə olunur. Afrikadakı ən populyar realiti şouları və idman oyunları Azerspace peyklərimiz üzərindən regionun **35-dən çox** ölkəsinə yayımlandı.

Tanzaniya və Nigeriya kimi ölkələrdən yeni TV kanalları yayıma başladı.

Data və internet xidmətləri sahəsində də irəliləyişlər əldə etmişik. Xüsusilə, Şərqi və Mərkəzi Afrika bölgələrinə data xidmətləri təmin olunmağa başlanmışdır.










## Mərkəzi Asiya və Azərbaycan üzrə yayım və xidmətlər

Asia TV, Naxçıvan Televiziyası, BRT TV və Baku TV artıq Azerspace-1 peykindən yayımlanır.
Starlink və Azerspace-1 vasitəsilə Xəzər dənizində və Şimal dənizində rabitə xidmətlərini artırdıq.
Azərbaycan bayrağı altında üzən gəmilərə "Inmarsat-C peyk xidməti"nin təminatı rəsmi olaraq Azərkosmos tərəfindən həyata keçirilir. Qlobal Marlink şirkəti tərəfindən dənizdə rabitə xidmətlərinin təmin edilməsi məqsədilə Azerspace-1 peykinin C-diapazonu üzərindən tutum icarəyə götürülmüşdür.
Ötən il ilk dəfə olaraq yerüstü hərəkətdə peyk rabitəsi (COTM) xidməti göstərilməyə başladıq. Hazırda 2 strateji əhəmiyyətli dövlət qurumu bu xidmətdən istifadə edir.

Həmçinin, Avropanın böyük peyk sistemləri təchizatçısı ilə bağlanan müqavilə əsasında gəmişmiqyaslı Azerspace-2 KU-diapazonunda COTP (Communication on the Pause) xidmətləri təqdim edilmişdir.

SES-Intelsat ilə Avropa regionu üzrə əməkdaşlığımızı genişləndirdik.

1. Azercell ilə Böhran İdarəetmə Qrupu layihəsi çərçivəsində qısa müddətli istifadə müqaviləsi imzaladıq.
2. Daşkəsən qızıl yatağında və Qarabağda fəaliyyət göstərən tikinti şirkətlərinə rabitə xidmətini təmin edirik.



### Azconnexus

**Telekommunikasiya sahəsi üzrə -** müştəri və tərəfdaşlarımıza təqdim etdiyimiz xidmət məhsullarını bir ad altında - **Azconnexus** adı altında bazarda mövqeləndirməyə başladıq. **Azconnexus** məhsulu çərçivəsində **səyyar (mobil-peyk) xidmətləri** istifadəyə verdik. Hər hansı fövqəladə hallar, böhran vəziyyətində və ya əlçatan olmayan ərazilərdə avadanlıq və internet həllərimizi təqdim edə bilirik.
Eyni zamanda, Starlink xidmətləri təqdim edilməyə başladı. Azconnexus məhsulumuz Amsterdamda "IBC" və Keyptaunda "Africacom" tədbirlərində təqdim edildi.
Daşkəsən qızıl yatağında Azconnexus Ka-diapazonu rabitə xidmətini, Rhosoon Antena üzərindən hərəkətdə olarkən Azconnexus Ku-diapazonu rabitə xidmətlərini təqdim edirik.






## Yerin məsafədən müşahidəsi xidmətləri

**Yerin müşahidəsi və CİS xidmətlərimiz üzrə -** yeni nəsil **"Platerra"** (süni intellekt əsaslı peyk təsvirlərinin emalı platforması) və **"Farmer App"** kənd təsərrüfatı üzrə peyk təsvirlərinin səmərəli istifadəsinə dair məhsulumuzu bazara çıxardıq.

Yerin müşahidəsi üzrə strateji əhəmiyyət daşıyan **12 kommersiya** layihəsinin icrasına uğurla start verdik.
2025-ci ildə Azərkosmosun təşkilatçılığı ilə "Kosmosdan gələn imkanlar: Kosmik müşahidəmizin sosial-iqtisadi inkişafa töhfəsinin 10 ili" adlı tədbir keçirilib.
Tədbirdə dövlət qurumlarının nümayəndələri, özəl sektor təmsilçiləri, elmi tədqiqatçılar və media nümayəndələri iştirak ediblər. Tədbir çərçivəsində "Kosmosdan müşahidə xidmətlərinin Azərbaycanın sosial-iqtisadi inkişafına verdiyi töhfələr" adlı panel sessiyası da baş tutub. Paneldə Azersky peyki vasitəsilə əldə olunan təsvirlərin müxtəlif sahələrdə - kənd təsərrüfatı, ekologiya, şəhərsalma, müdafiə və digər sahələrdəki tətbiq imkanları, real təcrübələr və nəticələr müzakirə olunub.
"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərşivəsində ekoloji layihələrin icrasını davam etdirdik.
Ölkəmizin **Milli Su Strategiyası layihəsində** yaradılmış işçi qrupda iştirak edirik və CİS xidmətlərimiz üzrə 2 pilot layihə çərçivədsndə su mənbələrinin rəqəmsallaşdırılmasını həyata keçirdik.
Eyni zamanda "Milli Məkan Məlumatlarının Monitorinqi" dövlət layihəsində 2025-ci ildə fəal iştirak etmişik və layihə çərçivəsində işlərə davam edirik.
Kommersiya baxımından **Qırğızıstanın bir sıra dövlət qurumları, Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Geoloji Kəşfiyyat Agentliyi** kimi tərəfdaşlarla Coğrafi İnformasiya Sistemləri üzrə layihələrə başlamışıq.
Qırğızıstanda kənd təsərüfatı sahəsində əməkdaşlıq çərçivəsində ilk dəfə xarici bazarda Azərkosmosun CİS layihəsinin icrası baş tutmuşdur.
Peyk texnologiyalarından istifadə etməklə iqlim dəyişikliyi ilə bağlı baş vermiş təsirlərin qiymətləndirilməsi və iqlim dəyişikliyinə qarşı aparılan tədbirlərin effektivliyinin artırılması məqsədi ilə İqlim Hesabatı hazırlanmışdır.
Süni intellekt modeli əsasında ölkə ərazisi üzrə meşələrdə baş verən dəyişikliklər aşkarlanmışdır.



# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Əlavə olaraq, Azərkosmos Intersputnik və Beynəlxalq Telekommunikasiya İttifaqı ilə əməkdaşlıq çərçivəsində “Orbital Sinerji: Kosmik rabitənin qlobal perspektivləri” mövzusunda beynəlxalq seminar təşkil edib.
2025-ci il ərzində müxtəlif ölkələrdən olan tərəfdaşlarımızla 20-yə yaxın memorandum imzaladıq. Türkiyənin, Fransanın, Almaniyanın, İsveçin, İtaliyanın və Pakistanın şirkətləri ilə yeni layihələr başladıq və mövcud müqavilələri genişləndirdik.

Azərkosmos 2025-ci ildə beynəlxalq müştəri tədbirlərində olduqca uğurlu stendlərlə təmsil olunub: SATExpo (Dubay), IBC (Amsterdam), AfricaCom buna misaldır.

Bununla yanaşı, Sidneydə keçirilmiş “Beynəlxalq Astronavtika Konfransı” (IAC 2025), Filippində Asiya-Sakit Okean Regionu Kosmik Agentliklərinin Forumu (APRSAF-31), Zimbabvedə “Yayım Konvensiyası” (SABA 2025), Almatıda “Digital Almaty 2025” Beynəlxalq Rəqəmsal Forumu və “Qazaxıstan Kosmik Günləri” tədbirində, Rabatda Afrika və Yaxın Şərq kosmik konfransı, Vyanada BMT-nin Kosmik Fəzanın Sülh Məqsədləri üçün İstifadəsi üzrə Komitəsinin Hüquq alt-komitəsinin sessiyasında, Şanxayda növbəti Ümumdünya radio konfransı, Osakada “EXPO 2025 Osaka” sərgisi,  Bakıda keçirilən Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransı (WTDC-25) tədbirində, Qazaxıstanda “Müasir şəraitdə kosmik fəaliyyət: imkanlar, innovasiyalar və perspektivlər” adlı seminarda, Monqolustanda keçirilən  ITU-ITTLLDC Seminarı: Dayanıqlı kosmik rabitə, spektrdən istifadə və Erkən Xəbərdarlıq Sistemləri sahəsində əməkdaşlıq panel sessiyalarında iştirak etdik.














Pakistanın ən böyük MNO (Mobile Network Operator) və ISP (Internet Service Provider) operatoruna xidmət verməyə başladıq. Beləliklə, Pakistanda 3 Mobil operator Azərbaycanın peyklərindən istifadə edir. Pakistandan daha bir bank şəbəkəsinə xidmət verməyə başladıq. Hal-hazırda Azerspace-2 peyki vasitəsilə Pakistanın 1200-dən çox bank ofisi arasında peyk rabitəsi təmin edilir. Pakistan ərazisinə MCPC TV platformamız yayım xidmətinə başladı.



Türkiyə şirkəti ilə Afrika qitəsi üzrə strateji əməkdaşlığa başladıq.















# KOSMİK TEXNOLOGİYALAR KONFRANSI

Azərkosmosun və Dialogue Events-in təşkilatçılığı ilə Bakıda Kosmik Texnologiyalar Konfransı 2025 (STC2025) keçirilib.

Konfransın məqsədi Mərkəzi Avrasiya regionunda və ümumilikdə dünyada kosmik texnologiyalar sahəsində əməkdaşlığı gücləndirmək, innovasiyaları təşviq etmək və kosmosun qlobal iqtisadiyyatda artan roluna dair müzakirələr aparmaqdır.

Tədbirdə 420-dən çox nümayəndə, o cümlədən kosmik agentliklərin rəhbərləri, dövlət qurumlarının nümayəndələri, özəl sektor təmsilçiləri və beynəlxalq ekspertlər bir araya gəlib. İki gün ərzində 200-dən artıq ikitərəfli görüş, 50 spikerin çıxışı, 21 sərgi və 8 müxtəlif sessiya vasitəsi ilə iştirakçılar kosmos sahəsində bilik, təcrübə və trendləri paylaşıb.

Azərkosmosun ev sahibliyi ilə Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin Kosmik Agentliklərinin və aidiyyəti qurumlarının rəhbərlərinin 4-cü illik görüşü Bakı şəhərində keçirildi.

Bu strateji toplantı, türk dövlətlərinin kosmik sahədə qarşılıqlı əlaqələrini gücləndirmək, regional innovasiya və elmi-texniki tərəfdaşlığı təşviq etmək məqsədi daşıyır. Əməkdaşlığın mərkəzində ortaq texnologiyaların yaradılması, insan kapitalına yatırımlar və kosmosun dinc məqsədlərlə istifadəsi dayanır.








STC 2025

24 - 25 aprel



# MÜKAFATLAR

Ötən il Azərkosmosun innovativ məhsulu olan “Azconnexus”, yayım sektorunun inkişafına verdiyi töhfəyə görə **ən yaxşı VSAT xidmət təchizatçısı (“VSAT Service Provider”) nominasiyası üzrə mükafata layiq görüldü.**

Bundan əlavə Azərkosmosun Bakı Teleportu Dünya Teleport Assosiasiyasının **“İlin Hibrid Teleportu” (“Hybrid Teleport of the Year”) nominasiyası üzrə ilk üçlüyə seçildi.**

Azərkosmos Londonda keçirilən “Strategies in Satellite Ground Segment 2025” (SSGS 2025) beynəlxalq konfransının mükafatlandırma mərasimində **“İlin Ən Yaxşı Regional Operatoru və Xidmət Təchizatçısı” (“Regional Operator and Service Provider of the Year”)** nominasiyası üzrə qalib seçildi.

Bu nailiyyətlər Azərkosmosun kommersiya istiqamətində **beynəlxalq səviyyədə qazandığı ilk mükafatlar sırasındadır.**




**“İlin Ən Yaxşı Regional Operatoru və Xidmət Təchizatçısı” (“Regional Operator and Service Provider of the Year”)**

**ən yaxşı “VSAT xidmət təchizatçısı” (VSAT Service Provider) nominasiyası üzrə mükafat**

# KOSMİK EKOSİSTEM

## Kosmik sahədə innovasiya və sahibkarlığın inkişafına dəstək

2025-ci ildə kosmik innovasiya istiqamətində beynəlxalq və yerli əhəmiyyətli müvafiq tədbirlərin keçirilməsi üzrə araşdırmalar, ilkin danışıqlar və təşəbbüslərin icrası təmin olundu.



19-20 iyun tarixlərində keçirilmiş Azərbaycanın ən böyük startap və innovasiya platforması – "Baku Investment Day" (Baku ID) tədbirində Azərkosmos "Community & Connectivity Partner" qismində iştirak etmişdir.

Azərkosmos Baku ID 2025 tədbiri çərçivəsində innovasiya ekosisteminin inkişafına dəstək və birgə tərəfdaşlıq istiqamətində mühüm rol oynamışdır. Tədbir boyunca keçirilən çıxışlar, startap müsabiqələri və panel müzakirələrinin fasiləsiz və yüksək sürətli keçirilməsi üçün "Azconnexus" platforması vasitəsilə peyk üzərindən internet bağlantısı Azərkosmos tərəfindən təmin olunmuşdur. Bundan əlavə, Azərkosmos startap stendində "Farmer App", "Platerra" və "ClimateReport" kimi rəqəmsal məhsullarını təqdim edərək real vaxtda xəritəçəkmə, məkan məlumatlarının təhlili və innovativ analitik alətləri iştirakçılara nümayiş etdirilmişdir.




6-7 dekabr 2025-ci il tarixlərində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, SABAH.HUB və İsrailin "Israel Aerospace Industries" şirkətinin tərəfdaşlığı ilə ölkəmizdə ilk dəfə "Milli Kosmik Hakaton" Azərbaycan İnnovasiya Mərkəzində həyata keçirilib. Hakatonda 10-a yaxın universitetdən 75 nəfər iştirak etmişdir. Hakatonun əsas məqsədi kosmos və innovasiya sahəsində 18-35 yaş arası azərbaycanlı gəncləri bir araya gətirərək innovativ yanaşmaların inkişafına şərait yaratmaq, kosmik sahibkarlıq və innovasiya barədə məlumatlılığı artırmaq və gənclərin bu sahəyə bağlılığını artırmaqdır.Hakatonun seçmə mərhələsində 150 müraciət arasından seçilmiş 15 komanda 24 saat ərzində Yerin müşahidəsi peykləri əsasında əldə olunan məlumatlar, və müasir texnologiyalardan istifadə edərək kənd təsərrüfatında məhsuldarlığın artırılması, şəhərsalma proseslərinin optimallaşdırılması, ətraf mühitin qorunması və fəlakətlərin idarə olunması kimi sahələrdə kosmik texnologiyalarının tətbiqinə dair həllər təqdim etdilər. Komandaların təqdim etdiyi innovativ həllər və yanaşmalar kosmik texnologiyalarının tətbiq imkanlarının nə qədər geniş olduğunu aydın şəkildə nümayiş etdirmişdir.




Tədbirin sonunda, münsiflər heyətinin seçdiyi 3 qalib komanda inkubasiya dəstəyi və müvafiq pul mükafatları ilə (I yer – 3000 manat, II yer – 2000 manat, III yer – 1500 manat) təltif olunmuşdur və növbəti il həmin komandalar Azərkosmosun həyata keçirəcəyi Milli Kosmik İnkubasiya layihəsi çərçivəsində ideyalarının inkişafını davam etdirəcəkdir.





## Maarifləndirici fəaliyyət

Azərbaycanda kosmik sahə üzrə elmin, tədqiqatın, innovasiyanın, layihənin idarəolunması, kosmik hüquq, kosmosda biznes təfəkkürün inkişafı istiqamətində silsilə fəaliyyətlər həyata keçirilir. Minlərlə gənc məhz bu kimi fəaliyyətlərlə Azərbaycanda milli kosmik ekosistemi gücləndirməyə dəstək olmuşdur.

Kosmos sahəsində sahibkarlıq və innovasiya üzrə maarifləndirmə istiqamətində 3 vebinar, 4 fiziki təlim keçirilmişdir. Təlimlərdə ümumilikdə 250-yə yaxın peşəkar gənc iştirak edib və bu təlimlər çərçivəsində kosmos texnologiyaları ilə bağlı ideyaları üzərində praktiki seanslarda işləyib, auditoriyaya təqdim ediblər.




Azərkosmosun təşkilatçılığı ilə artıq dördüncü ildir ki, 4-10 oktyabr tarixlərində Azərbaycanda Ümumdünya Kosmos Həftəsi keçirildi. 2025-ci ildə Ümumdünya Kosmos Həftəsinin əsas mövzusu "Kosmosda Həyat" olub.

Ölkəmizdə peyk təsvirlərindən istifadənin təşviqinə dair növbəti dəfə "Yerin Məsafədən Müşahidəsi" üzrə ənənəvi müsabiqə keçirilib. Müsabiqənin əsas məqsədi peyk təsvirlərinin və xüsusilə Azersky peykinin arxiv təsvirlərinin istifadəsini əlçatan etmək, ölkə daxilində peyk təsvirləri ilə həyata keçirilən layihələrin inkişafını dəstəkləməkdir.

2025-ci il üzrə müsabiqəyə ümumilikdə 293 müraciət daxil olub. Onlardan 74 layihə təqdim edilib, 50-si final mərhələsinə keçib və 3 nəfər qalib seçilib. 2025-ci ilki müsabiqənin yeniliklərindən biri 5 müxtəlif nominasiya üzrə əlavə mükafatların təqdim edilməsi olub.

Azərkosmos İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı (ICESCO) tərəfindən keçirilən beynəlxalq qrant müsabiqəsində qalib seçilib. Tibb və astrofizikanın birləşməsi nəticəsində Azərkosmos kosmik tibb üzrə elmi-praktiki təlimdə sıfır cazibə-qüvvəsi çəkisi altında tibb və tibbi təcrübənin öyrənilməsi üzrə nəzəri və praktiki kurs təqdim edib.



## İnsan kapitalının inkişafı

14–23 aprel tarixlərində ADA Universitetinin təşəbbüsü ilə keçirilən “Employability Week” layihəsində Azərkosmosun əməkdaşları iştirak ediblər. ADA Universitetinin tələbələri üçün emosional zəka, müsahibə bacarıqlarının inkişafı, uğur qazanmaq üçün bacarıqların artırılması və iş etikası, sahibkarlıq və innovasiya, şəxsi brendinq və rəqəmsal şəbəkələşmə kimi mövzularını əhatə edən təqdimatlar nümayiş olunub.

Qeyd edək ki, Agentliyimiz bu layihədə artıq ikinci ildir iştirak edir. Ötən il layihənin nəticələrinə əsasən, 10 tələbə Azərkosmosda təcrübə proqramında iştirak edib.

Azərbaycanda artıq ikinci dəfə “Qadınlar üçün Kosmos” üç ay davam edən mentorluq proqramı həyata keçirilib. “Qadınlar üçün Kosmos” mentorluq proqramının əsas məqsədi Azərbaycanda qadınların kosmos sahəsindəki potensialını aşkar etmək, onlara təhsil və karyera yolunda fərdi mentorluq dəstəyi vermək, həmçinin onların bu sahədə qlobal əməkdaşlıqda iştirakını dəstəkləməkdir. 18-35 yaş arası, kosmos və əlaqəli sahələrə maraq göstərən qadınlar üçün nəzərdə tutulan proqram, iştirakçıları kosmik sənayenin müxtəlif istiqamətlərində çalışan peşəkarlarla bir araya gətirir.

2025-ci ildə proqrama 15 müxtəlif şəhərdən, o cümlədən ölkə xaricindən ümumilikdə 138 müraciət daxil olub. Seçim meyarlarına tam cavab verən 10 iştirakçı proqramda iştirak hüququ qazanıb. Onlar aprel-iyun ayları ərzində 5 təcrübəli mentor ilə birbaşa görüşlərə qatılıb.

2025-ci il ərzində Azərkosmos tərəfindən kosmos sahəsində müasir məhsul inkişafı yanaşmalarına əsaslanan “ThinkSpace” sessiyaları baş tutub.

“ThinkSpace” sessiyanın əsas məqsədi – əməkdaşların təşəbbüslərinin təşviq edilməsi, innovativ ideyaların sürətli və strukturlu şəkildə toplanılması, departamentlər arasında əməkdaşlığın gücləndirilməsi və Azərkosmosun Strateji İnkişaf Planına dair daxili məlumatlılığın artırılmasıdır.











## İntellektual məhsulun ixracı

Azərkosmos beynəlxalq kosmik bazarda təkcə peyk xidmətlərini deyil, həm də qazandığı bilik və təcrübəni kommersiyalaşdırır.

Belə ki, Azərkosmos Bəhreyn Krallığının ilk yerli peyk layihəsinə dəstək olmaq məqsədilə özünün intellektual məhsulu olan radiotezliklərin idarəolunması üzrə təlim və konsultasiya proqramını təqdim edib.

Bununla yanaşı, Azərkosmosun intellektual məhsulu Macarıstanın 4iG Holdinqinin və holdinqin tərkibinə daxil olan Hungaro DigiTel, Remred və GeoData şirkətlərinin nümayəndələrinə həm Macarıstanda, həmçinin Azərbaycanda da təqdim olunub.







# KOSMİK AKADEMİYA

Azərkosmos, Azərbaycanın milli kosmik ekosisteminin aparıcı qüvvəsi olaraq son illərdə təhsil, elm, təlim və maarifləndirmə sahələrində əhəmiyyətli layihələr həyata keçirib. Məqsəd ölkəmizin kosmik texnologiyalar sahəsindəki mövqeyini gücləndirmək və kosmos sahəsində insan kapitalını inkişaf etdirməkdir. Bu məqsədləri daha da strukturlu və nizamlı həyata keçirmək üçün KOSMİK Akademiya yaradılıb. Akademiyanın hədəfi Azərbaycan gənclərinin kosmos və yüksək texnologiyalara olan marağını artırmaq və onları gələcək texnoloji inkişafa hazırlamaqdır. Azərkosmosun nəzdində fəaliyyət göstərən KOSMİK Akademiyanın təşkil etdiyi tədbirlərin əsas məqsədi gəncləri kosmos sahəsinə həvəsləndirmək, onların biliklərini artırmaq və ölkədə innovativ kosmik ekosistemin formalaşmasına dəstək verməkdir.

KOSMİK Akademiya regionda alternativi olmayan, region ölkələri həmçinin Mərkəzi Asiyada kosmik hub (yəni kosmik qovşaq) rolunu oynayır. KOSMİK Akademiyanın fəaliyyətinin əsas istiqaməti gənclərin kosmik sahədə təhsilini və təcrübəsini artırmağa yönəlib. Akademiya Azərkosmosun yerli və beynəlxalq təcrübələrini birləşdirərək gələcək nəsillər üçün bu sahədə mütəxəssislər yetişdirməyi hədəfləyir.





## “Azərbaycanın Zəfəri” ilk məktəbli peyki



Azərbaycanlı məktəblilərin hazırladığı ilk peyk ABŞ-nin Kaliforniyadakı VandenberqKosmik Qüvvələr Bazasından SpaceX şirkətinin “Falcon 9” raketi ilə uğurla orbitə göndərilib. KOSMİK Akademiyanın “Milli Peyk İnnovasiya” müsabiqəsi çərçivəsində 7–9-cu sinif şagirdləri tərəfindən hazırlanan kiçik ölçülü peyk artıq kosmosdadır.

Azərbaycanın Vətən müharibəsində əldə etdiyi zəfərin 5 illiyinə həsr olunan bu peykin adı da “Azərbaycanın Zəfəri”dir. Bu qürurverici layihə ölkənin təhsil və innovasiya ekosistemində tarixi dönüş nöqtəsi hesab olunur.

Azərbaycanın 41 məktəbindən 672 şagirdin iştirak etdiyi proqram regionda məktəblilər arasında həyata keçirilən ən geniş kosmik təşəbbüslərdən biri kimi qeyd olunur.

“Azərbaycanın Zəfəri” peyki 297 nömrəli məktəbin şagirdləri tərəfindən hazırlanıb. Layihə gənc nəsildə vətənpərvərlik ruhunu, yaradıcı düşüncəni və texnoloji marağı birləşdirən hadisə kimi dəyərləndirilir.



### Rəqəmsal İnkişaf

Kosmik obyektlər üzrə dövlət reyestrinin rəqəmsal sistemi Azərbaycan Respublikasının Kosmik fəaliyyət haqqında Qanun və bu qanunun icrasına dair 4 avqust 2023-cü il tarixli Fərmana uyğun olaraq hazırlanaraq istifadəyə verilmişdir. Sistem kosmik obyektlərin (o cümlədən peyklər və digər kosmik qurğuların) vahid, şəffaf və hüquqi əsaslara söykənən qeydiyyatını təmin etməklə yanaşı, onların orbitə çıxarılması, idarə olunması və istismardan çıxarılması üzrə məlumatların mərkəzləşdirilmiş qaydada idarə olunmasına imkan yaradır. Nəticə etibarilə, tənzimləyici uyğunluq gücləndirilmiş, məlumatların izlənəbilənliyi artırılmış və idarəetmə proseslərinin effektivliyi yüksəldilmişdir.

### Növbəti addım:

MyAzercosmos müştəri portalının istifadəyə verilməsi:

Müştərilərlə qarşılıqlı əlaqələrin rəqəmsallaşdırılması, xidmətlərin əlçatanlığının artırılması və müştəri təcrübəsinin təkmilləşdirilməsi məqsədilə vahid müştəri portalının istifadəyə verilməsi planlaşdırılır.



# AZƏRKOSMOS QLOBAL MEDİANIN GÖZÜNDƏ

2025-ci ildə Azərkosmosun fəaliyyəti haqqında xəbərlər il boyunca yerli və beynəlxalq medianın diqqətində olmuşdur. Yerli media nümayəndələrinin iştirakı ilə media turlar, media brifinqlər, beynəlxalq media tərəfdaşlar ilə birgə netvörkinq tədbirləri həyata keçirilmişdir.

12 aprel - Ümumdünya Aviasiya və Kosmonavtika Günü ərəfəsində Azərkosmosun KOSMİK Akademiyasında media nümayəndələri üçün infosessiya təşkil olunub.










İnfosessiyanın məqsədi KOSMİK Akademiyanın fəaliyyəti, ölkəmizdə kosmik sənayenin inkişafı istiqamətində atdığımız strateji addımlar və həyata keçirdiyimiz innovativ layihələr barədə mətbuata ətraflı məlumat təqdim etmək olub.




“African Wireless Communications” jurnalı Azərkosmos haqqında müsahibə dərc edib. Müsahibədə Azerspace-1 və Azerspace-2 peyklərinin Afrikanın rəqəmsal inkişafına təsiri, müxtəlif sektorlar üçün təqdim edilən peyk həllərinin rolu, eləcə də Azərkosmosun Afrikada 10 illik fəaliyyətinin mühüm nəticələri əhatə olunub.

“The Middle East Leaders” jurnalı Azərkosmos haqqında müsahibə dərc edib. Eyni zamanda, Teleqraf İnformasiya Agentliyi də Azərkosmos haqqında müsahibə dərc edib.




“Broadcasting Convention” (SABA 2025) çərçivəsində Zimbabvenin ZBC kanalında Azərkosmos haqqında video süjet yayımlanıb.

Bundan əlavə, bir sıra televiziya kanalları da Azərkosmos haqqında video süjetlər hazırlayıb. Onlar arasında Mədəniyyət TV, İctimai TV, AzTV, Anewz, Asan radio, Real TV yer alır.

# GƏLƏCƏK FƏALİYYƏTİN PRİORİTETLƏRİ

## Yeni layihələr

Azərkosmos ölkənin kosmik proqramının davamlılığı istiqamətində hazırda yeni peyk layihələri üzərində çalışır. İlk telkommunikasiya peykimiz - Azerspace-1 peykinin əvəzlənməsi istiqamətində Azerspace-3 layihəsi üzrə işlər davam edir.

Yer müşahidəsi sahəsində də yeni peyk proqramımız davam edir. Ən azı iki aşağı orbitli peykləri (Azersky- 2A və Azersky-2B) özündə birləşdirəcək Azersky-2 layihəsi ilə yer müşahidəsi xidmətləri istiqamətində funksiyalarımızı genişləndirəcəyik.

Peyk istehsalı zavodu və istehsalata cəlb ediləcək işçilər üçün Kosmik Aparatların İnkişafı Mərkəzinin qurulması üzrə işlər davam edir.



Azersky - 2 proqramı



Azerspace - 3







## Dayanıqlı inkişaf

“Dayanıqlı İnkişaf Məqsədlərinə Dəstək” hədəfimiz üzrə də təşəbbüslərimizə başlamışıq. 2023-cü ildə Azərkosmos Birləşmiş Millətlər Təşkilatının “Qlobal Saziş” (UN Global Compact) təşəbbüsünə qoşulmaqla, kosmik fəaliyyət sahəsində dayanıqlılığı planlaşdırmaq imkanı əldə etmişdir. Biz də agentlik olaraq qarşıdakı illərdə Yaşıl siyasətin tətbiqi, Ətraf mühit, Sosial və İdarəetmə (ƏSİ) prinsiplərinin tam şəkildə həyata keçirilməsi istiqamətində araşdırmalarımızı təkmilləşdirəcək və tətbiq sahələrini genişləndirəcəyik.




Bununla yanaşı, 2025-ci ildə ölkəmizdə keçirilən “Bakı İqlim Fəaliyyəti Həftəsi” (BCAW 2025) çərçivəsində təşkil olunan panel sessiyalarda iştirak etmişik. “Metan İdarəetməsi” mövzusunda çıxış zamanı, metan qazının istixana effekti və qlobal istiləşmədə rolu vurğulanıb. “Dəyişən İqlim Şəraitində Ağıllı Kənd Təsərrüfatı və Qida Təhlükəsizliyi / İqlim Texnologiyaları” panel sessiyada isə, iqlim dəyişikliyinin kənd təsərrüfatına təsiri və bu sahədə peyk və rəqəmsal texnologiyaların rolu müzakirə olunub.

Həmçinin, “Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransı” çərçivəsində “Qlobal İqlim Dəyişikliyi: Azərbaycanda Quraqlıq Risklərinin İdarə Edilməsi” mövzusunda panel sessiyada iştirak etmişik.



# YEKUN

Azərbaycanın Kosmik Agentliyi – Azərkosmos özünün fəaliyyəti haqqında daimi olaraq yerli və beynəlxalq ictimaiyyəti məlumatda saxlayır, paylaşdığı hər bir məlumatın şəffaflığına təminat verir. Bununla əlaqədar olaraq Azərkosmos artıq beşinci ildir ki kosmik sahədə il ərzində həyata keçirdiyi fəaliyyətlərini İllik hesabat formasında ictimaiyyətə təqdim edir.

azercosmos

AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ

2025